# AZƏRBAYCAN RESPUBLİKASI
# SƏHİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI
# QƏRAR
# № 06

**Bakı şəhəri** 02 fevral 2016-cı il

**"2016-cı ilin yanvar ayında baş vermiş ana ölümlərinin təhlili barədə"**

"Hamiləlik, doğuş və zahılıq dövrlərində ölüm, həmçinin mamalıq ağırlaşmaları hallarının təhlili üzrə" Komissiyanın sədri Sevinc Məmmədovanın 2016-cı ilin yanvar ayında respublikanın tibb müəssisələrində baş vermiş ana ölümlərinin təhlili üzrə məlumatı dinlənilmiş və aşağıdakı nöqsan və çatışmazlıqlar müəyyən edilmişdir.

Belə ki, 01.01.2016-cı il tarixdə Bakı Sağlamlıq Mərkəzinə daxil olmuş, Sumqayıt şəhər sakini, 31 yaşlı Günay Məmmədağa qızı Ağayeva həkim anestezioloq-reanimatoloq Nailə Əbdürrəhmanova və həkim mama-ginekoloq Afət Tağıyeva tərəfindən qeysəriyyə əməliyyatı icra edilərək 4800 qr kütləsi olan ölü qız uşağı xaric edildiyindən sonra, əməliyyat zamanı hamilənin ürək fəaliyyəti dayanmış və aparılan reanimasiya tədbirlərinə baxmayaraq saat 15:30-da ölüm qeyd olunmuşdur.

Araşdırma zamanı müəyyən edilmişdir ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 03.04.2013-cü il tarixli 25 nömrəli əmri ilə təsdiq edilmiş "Bakı Sağlamlıq Mərkəzi haqqında Əsasnamə"də müəyyən edilmiş vəzifələrə antenatal (doğuşaqədər dövr) xidmətin göstərilməsi aid olmadığı halda həmin mərkəzin həkim mama-ginekoloqu Afət Sabir qızı Tağıyeva tərəfindən G.Ağayevaya hamiləlik dövründə vəzifə səlahiyyətlərinə daxil olmayan antenatal xidmət göstərilmişdir. A.Tağıyeva tərəfindən hamilənin yaşadığı ünvan üzrə qeydiyyata alınması üçün məlumat verilməmiş və nəticədə hamilə qadın məsləhətxanasında müşahidədə olmamışdır.

Hamilə Bakı Sağlamlıq Mərkəzinə müraciət etdiyi zaman həkim mama-ginekoloq tərəfindən qeysəriyyə əməliyyatının icrasının gecikdirildiyi və həmin əməliyyat zamanı həkim anestezioloq-reanimatoloq tərəfindən kobud səhvlərə yol verildiyi müəyyən edilmişdir. Aparılan təşrih nəticəsində ölümün bilavasitə səbəbi intubasion narkozun verilməsi zamanı kobud texniki qüsurun baş verməsi nəticəsində dölyanı maye emboliyası ilə əlaqədar inkişaf etmiş kardio-pulmonal şok fonunda kəskin tənəffüs çatışmazlığı olmuşdur.

Növbəti ana ölümü hadisəsi 02.01.2016-cı il tarixdə M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında baş vermişdir. Gəncə şəhər sakini, 22 yaşlı Ülviyyə Elçin qızı Abbasova hamiləliyi ilə əlaqədar 2015-ci ilin iyun ayının 23-dən sentyabr ayının 30-na kimi hamiləlik diaqnozu ilə Bakı şəhəri 2 nömrəli Dəmiryolu Poliklinikasının həkim mama-ginekoloqu Vəfa İsmayılova tərəfindən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 03.02.2014-cü il tarixli 2 nömrəli qərarı ilə təsdiq edilmiş "Qadın

məsləhətxanalarında, ambulator poliklinik tibb müəssisələrində antenatal xidmətin təşkili haqqında Təlimat"ın tələbləri pozularaq ərazi üzrə qadın məsləhətxanasına məlumat vermədən müalicə edilmişdir.

Sonradan Gəncə Dəmiryolu Xəstəxanası Poliklinikasının həkim mama-ginekoloqu Gülnarə Əliyeva və Gəncə şəhər 1 nömrəli Doğum Evinin maması Aybəniz Qurbani tərəfindən müayinə və müalicəsinin davam etdirildiyini Ü.Abbasovanın anası Mətanət Məmişova bildirsə də, bununla bağlı heç bir rəsmi qeydiyyat aşkarlanmamış və qeyd olunan tibb işçiləri bunu inkar etmişdirlər.

16.12.2015-ci il tarixdə saat 05:00-da hamilə Gəncə Regional Perinatal Mərkəzində aparılan müayinələrdən sonra növbətçi həkim-ginekoloqlar Səkinə Cənnətova və Mənzər Məmmədova "35-36 həftəlik hamiləlik. Ölü döl" diaqnozu təyin edərək və hamiləyə adekvat tibbi yardım göstərmədən Göygöl Rayon Mərkəzi Xəstəxanasına yönəltmişdilər. Halbuki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 18.03.2013-cü il tarixli 24 nömrəli əmri ilə təsdiq edilmiş "Hamilə, doğan, zahı qadınların və yenidoğulmuşların perinatal yardımın səviyyələrinə uyğun hospitalizasiyasına tibbi göstərişlər"ə III səviyyəli tibb müəssisəsinə aid olan perinatal mərkəz hamiləliyi və doğuşu yüksək riskli qadınlara, həmçinin hestasiya müddəti 22 həftədən yuxarı qadınlara ixtisaslaşdırılmış və xüsusi tibbi yardım göstərməlidir.

Hamilə həmin gün saat 07:50-də Göygöl Rayon Mərkəzi Xəstəxanasının doğum şöbəsinə daxil olmuş və qeysəriyyə əməliyyatı icra olunmuşdur.

Səhiyyə Nazirliyinin Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasından dəvət olunmuş həkim-reanimatoloq Eldar Əliyev 17.12.2015-ci il tarixdə tibbi zərurət olmadan xəstəni akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasına köçürmüşdür. Bununla əlaqədar xəstənin vəziyyəti daha da ağırlaşmış və həmin xəstəxanada müalicə tədbirlərinə baxmayaraq 02.01.2016-cı il tarixdə saat 23:00-da ölüm baş vermişdir.

Aparılan təşrih nəticəsində ölümün bilavasitə səbəbi bətndaxili dölün ölümü ilə əlaqədar inkişaf etmiş orqanizmin ümumi intoksikasiyası fonunda HELLP–sindromla əlaqədar poliorqan çatışmazlığı və baş beynin işemik insultu olmuşdur.

Üçüncü ana ölümü hadisəsi Tovuz Rayon Mərkəzi Xəstəxanasında 06.01.2016-cı il tarixdə baş vermişdir. Tovuz rayon sakini 22 yaşlı Lalə Əjdər qızı Abbasova 25.09.2015-ci il tarixində Qovlar Şəhər Xəstəxanasının mamalıq-ginekologiya şöbəsinin həkimi Pakizə İslam qızı Allahverdiyeva tərəfindən 12-13 həftəlik hamiləlik müddətində qeydiyyata alınmasına baxmayaraq vaxtlı-vaxtında müayinələrə cəlb olunmamışdır. 04.01.2016-cı il tarixində hamilə səhhəti ilə bağlı P.Allahverdiyevaya müraciət edib, lakin sonuncu hamilənin vəziyyətini düzgün qiymətləndirməyib, stasionar şəraitdə yardım göstərməli olduğu halda ev şəraitində aparılması üçün təyinat verib.

Bir gün sonra xəstə təcili və təxirəsalınmaz tibbi yardım xidməti vasitəsilə "27-28 həftə hamiləlik; hamiləlik hestozu; hamiləliyin gec toksikozu; eklampsiya; ölü döl; ağciyərlərin ödemi" diaqnozu ilə Tovuz Rayon Mərkəzi Xəstəxanasına daxil olub, həyatı göstəriş ilə həkim-cərrah X.Nuriyev tərəfindən qeysəriyyə əməliyyatı icra olunub. Əməliyyatdan sonra xəstənin vəziyyəti ağır olduğundan növbəti gün həkim-nevropatoloq İsmayıl Qəmbər oğlu Yüzbaşov tərəfindən xəstə müayinə edilib, lakin zəruri müayinə və müalicə təyin edilməyib.

06.01.2016-cı il tarixdə Səhiyyə Nazirliyinin Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının həkim–reanimatoloqu Qaraca Həsənov, 08.01.2016-cı il tarixdə isə həkim-reanimatoloqu Elşən Ağayev və həkim-neyrocərrah Bəhruz Eyvazov tərəfindən xəstə müayinə olunur, diaqnozuna uyğun müvafiq təyinatlar verilir, lakin aparılan reanimasiya

tədbirlərə baxmayaraq saat 22:00-da ölüm qeydə alınır. Qohumların qəti etirazına görə meyiti təşrih etmək mümkün olmayıb.

Səhiyyə Nazirliyinin Komissiyası tərəfindən aparılan araşdırma zamanı antenatal qulluğun yararsız olduğu, hamilənin vəziyyətinin düzgün qiymətləndirilmədiyindən, vaxtında hospitalizasiyası təşkil edilmədiyi müəyyən edilmişdir.

Digər ana ölümü hadisəsi 19.01.2016-cı il tarixdə ak. M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında baş vermişdir. Müəyyən edilmişdir ki, Gəncə şəhər sakini 20 yaşlı Leyla Alişan qızı Həsənova 28.10.2015-ci il tarixində hamiləliyin 19-20 həftəlik müddətində Gəncə şəhəri 2 nömrəli qadın məsləhətxanasında həkim-ginekoloq Gülnarə Rüfət qızı Əhmədova tərəfindən qeydiyyata alındığı zaman "Pielonefrit" diaqnozu qoyulmuş və həkim-uroloqun müayinəsinə göndərilmişdir. Lakin xəstənin müayinədən keçməsi və sonrakı sağlamlıq vəziyyəti nəzarətdə saxlanılmamış, yalnız 10.11.2015-ci il tarixdə həkim-ginekoloq G.Əhmədova telefonla patronaj edərək, hamilənin müşahidə kartında "21-22 həftə hamiləlik, vəziyyəti yaxşıdır, qadın məsləhətxanasına gəlməkdən imtina edir" qeydlərini aparmışdır və bildirdiyinə görə əmək məzuniyyətinə getməsi ilə əlaqədar nəzarətində olan hamilələr barədə məlumatı şöbə müdiri Kifayət Məmmədovaya vermişdir. Bu da qadın məsləhətxanasında işin düzgün təşkil edilməməsini, işçilər arasında iş bölgüsünün aparılmadığını və onların fəaliyyətinə nəzarətin olmadığını göstərir.

06.12.2015-ci il tarixində hamilənin anası qızının vəziyyəti ağırlaşdığından məsləhət almaq məqsədi ilə Gəncə Perinatal Mərkəzinin qəbul şöbəsinə müraciət etmiş, qəbulda olan mama B.Verdiyeva hamilənin özü olmadığından, növbətçi həkimi gözləmədən hamilənin A.Səhhət ad. 1 nömrəli şəhər xəstəxanasının ginekoloji şöbəsinə aparılması barədə səlahiyyətlərinə aid olmadığı məsələ üzrə tövsiyə edib. Bu da bundan əvvəl hadisədə qeyd olunduğu kimi Gəncə Perinatal Mərkəzində işin düzgün təşkil edilmədiyini və tibb işçilərinin fəaliyyətinə nəzarətin olmadığını göstərir.

Həmin gün hamilə Abbas Səhhət adına xəstəxananın ginekologiya şöbəsinə "24-25 həftəlik hamiləlik. Xroniki pielonefrit. Oliquriya. Böyrək daşı xəstəliyi ?" diaqnozla daxil olub, lakin sonradan xəstənin qohumları orada göstərilən xidmətdən imtina edərək 07.12.2015-ci il tarixdə ak. M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasına müraciət ediblər. Hamilədə müayinə zamanı sidik axarının aşağı 1/3 hissəsində daş olduğundan həkim-uroloq Məcid Hacıyev tərəfindən həyatı göstəriş ilə sağ tərəfə stent qoyulmuş, 09.12.2015-ci il, 29.12.2015-ci il tarixlərdə həkim-nefroloq Məlahət Həsənova tərəfindən baxışlar keçirilir, müvafiq təyinatlar verilir.

30.12.2015-ci il tarixində sol böyrəyində kəskin ağrılar olduğundan sidik axarının aşağı 1/3 hissəsi $d \approx 7$ mm daş və hidronefroz olduğuna görə həkim-uroloq Məcid Hacıyev tərəfindən sol tərəfə stent qoyulur.

16.01.2016-cı il tarixdə qəfləti hematuriya baş verdiyindən, qeysəriyyə əməliyyatı aparılır. 19.01.2016-cı il tarixdə təkrari hematuriya olduğundan, həkim-uroloq M.Hacıyev və həkim-nefroloq M.Həsənova baxış keçirir və müalicənin davam edilməsi tövsiyə edilir.

Həkim-uroloq M.Hacıyev xəstəyə müdaxilə zamanı çətinlik çəkdiyindən rəhbərliklə razılaşdırmadan zahını "Medistyle" klinikasına aparır, yerli anesteziya altında sistoskopiya aparıb, sağ sidik axarının stenti xaric edir. Uretral kateter qoyulur. Vəziyyəti stabilləşdikdən sonra, xəstə Respublika Klinik Xəstəxanasına qaytarılır.

Aparılan tədbirlərə baxmayaraq, xəstə 19.01.2016-cı il tarixdə saat 23:00 vəfat edir. Qohumların qəti etirazına görə meyiti təşrih etmək mümkün olmayıb.

Vəfat edən qadına göstərilən antenatal qulluğun yararsız olduğu, A.Səhhət adına 1 nömrəli Şəhər Xəstəxanasında tibbi xidmət zamanı xəstəyə lazımı diqqət olunmadığı, Bakı şəhərinə köçürülməsi üçün xüsusiləşdirilmiş avtonəqliyyat vasitəsinin ayrılmadığı, ak. M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında müalicə tədbirləri zəruri səviyyədə aparılmadığı, qeysəriyyə əməliyyatına verilmiş qərar bu xəstənin vəziyyətinin daha da ağırlaşmasına səbəb olduğu, uroloji xidmətin tam və düzgün göstərilmədiyi müəyyən edilmişdir.

Qeyd olunanları, həmçinin baş vermiş hadisələr nəticəsində vətəndaşların sağlamlıq hüququnun qorunması sahəsində ziyan dəydiyini nəzərə alaraq və gələcəkdə bu cür halların qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-cı il tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 17-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Baş vermiş ana ölümü hadisələri ilə bağlı tibb müəssisələrin fəaliyyətinin düzgün idarə edilməməsi, işçilər arasında iş bölgüsünün aparılmaması və onların fəaliyyətinə nəzarətin olmaması nəticəsində əmək funksiyalarını pozduğuna görə Gəncə Regional Perinatal Mərkəzinin direktoru Təranə Əhməd qızı Həsənova, Gəncə səhər qadın məsləhətxanasının müdiri Rəna Fikrət qızı Bağırova tutduqları vəzifədən azad edilsinlər.

2. Rəhbərlik etdiyi müəssisədə tibbi xidmətin təşkilində olan nöqsan və çatışmazlıqlara görə Tovuz rayon Mərkəzi Xəstəxanasının baş həkimi Paşa Qurban oğlu Muradova sonuncu xəbərdarlıqla şiddətli töhmət verilsin.

3. Doğuşayardım xidməti göstərilən zaman əmək vəzifələrini kobud şəkildə pozduqlarına görə Bakı Sağlamlıq Mərkəzinin mama-ginekoloqu Afət Sabir qızı Tağıyeva və həkim anestezioloq-reanimotoloq Nailə Mahmud qızı Əbdürrəhmanova, Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının həkim-reanimatoqu Eldar Cahangir oğlu Əliyev, Tovuz rayonunun Qovlar Şəhər Xəstəxanasının mama-ginekoloqu Pakizə İslam qızı Allahverdiyeva, ak. M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının urologiya şöbəsinin müdiri Məcid Mahmud oğlu Hacıyev tutduqları vəzifədən azad edilsinlər.

4. Doğuşayardım xidməti göstərilən zaman yol verdikləri pozuntulara görə Gəncə Regional Perinatal Mərkəzinin həkim mama-ginekoloqları Mənzər Məmməd qızı Məmmədovaya və Səkinə Aydın qızı Cənnətovaya, Gəncə səhər qadın məsləhətxanasının şöbə müdiri Kifayət İbrahim qızı Məmmədovaya, həkim mama-ginekoloqu Gülnarə Rüfət qızı Əhmədovaya, A.Səhhət adına 1 nömrəli şəhər xəstəxanasının həkim mama-ginekoloqu Ruziyə Heydər qızı İsayevaya, Tovuz Rayon Mərkəzi Xəstəxanasının həkim-nevropatoloqu İsmayıl Qəmbər oğlu Yüzbaşova sonuncu xəbərdarlıqla şiddətli töhmət verilsin.

5. Hüquq və daxili nəzarət sektoru müdiri vəzifəsini icra edən E.Əzizova tapşırılsın ki, Ağayeva Günay Məmmədağa qızının və Abbasova Ülviyyə Elçin qızının ölüm hadisələrində cinayət əlamətlərinin olması ehtimal edildiyindən araşdırılma ilə bağlı materiallar hazırlanaraq baxılmaq üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim olunması təmin edilsin.

6. "Azərbaycan Dəmir Yolları" QSC-nin Tibbi-Sanitar Xidmətinə tövsiyə edilsin ki, antenatal qulluq lazımi səviyyədə aparılmadığına görə 2 nömrəli Bakı Dəmiryol

Poliklinikasının həkim mama-ginekoloqu Vəfa Sahib qızı İsmayılovanın və Gəncə Dəmiryol xəstəxanasının həkim mama-ginekoloqu Gülnarə Rauf qızın Əliyevanın əmək fəaliyyətləri qiymətləndirilsin və gələcəkdə baş verə biləcək analoji hadisələrin qarşısının alınması üçün zəruri tədbirlər görülərək nəticəsi barədə Səhiyyə Nazirliyinə məlumat verilsin.

7. Özəl və digər qurumların tabeliyində olan ginekoloji və doğuşayardım xidmət göstərən tibb müəssisələri antenatal xidmət üçün müraciət edən hamilələr barədə ərazi qadın məsləhətxanalarına məlumatın verilməsini və bu xidmətin həmin tibb müəssisələri ilə əlaqəli şəkildə göstərilməsini Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 03.02.2014-cü il tarixli 2 nömrəli qərarı ilə təsdiq edilmiş Təlimata uyğun tam həcmdə təmin etsinlər.

8. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın:

8.1. rəhbərlik etdikləri tibb müəssisələrinin doğuşayardım fəaliyyəti şəxsi nəzarətə götürülsün, bu sahədə göstərilən xidmət tibbi şuralarda təhlil edilsin, mövcud nöqsanların aradan qaldırılması istiqamətində konkret tədbirlər həyata keçirilərək bir ay müddətində Səhiyyə Nazirliyinə məlumat verilsin;

8.2. hər baş verən ana ölümü hadisəsi barədə Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinə, qeyri-iş günlərində isə nazirliyin məsul növbətçisinə 24 saat ərzində məlumat verilməsi təmin edilsin;

8.3. doğuşayardım xidmətində çalışan tibb işçilərinin vəzifə təlimatlarının tələblərinə riayət olunması üzərində nəzarət gücləndirilsin və onların təkmilləşdirilməsi üçün zəruri tədbirlər həyata keçirilsin;

8.4. rəhbərlik etdikləri müəssisələrinin tibb işçiləri tərəfindən normativ hüquqi aktların, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əmr və qərarlarının, xüsusilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 19.09.2012-cü il tarixli 70 nömrəli əmri ilə təsdiq edilmiş işçilərin vəzifə təlimatlarının tələblərinə riayət olunması üzərində ciddi nəzarət təmin edilsin.

9. Tibbi yardımım təşkili şöbəsinin müdiri G.Poladova tapşırılsın:

9.1. tibb müəssisələri tərəfindən ginekoloji və doğuşayardım xidmətlərinin göstərilməsi üzərində nəzarət gücləndirilsin;

9.2. doğuşayardım sahəsində, o cümlədən neonatoloji xidmətlə bağlı respublika üzrə təşkilatı-metodik işlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Tibb Universitetinə müvafiq məktub göndərilsin.

10. Bu qərarla tutduğu vəzifədən azad olunan işçilərlə əmək müqaviləsi Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 80-ci maddəsi ilə müəyyən edilmiş qaydada Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi ilə razılaşdırmaqla ləğv edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Oqtay Şirəliyev**

**Kollegiyanın məsul katibi** **Nərgiz Şahbazova**